2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli, 339 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 23 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə qeydə alınmış namizəd Xəlilov İlkin Fikrət oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının (Mərkəzi Seçki Komissiyası) daxil olmuş 20 fevral 2020-ci il tarixli 339 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən nəzərdən keçirilərək müvafiq rəy verilmişdir.

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə qeydə alınmış namizəd Xəlilov İlkin Fikrət oğlu 2020-ci il fevralın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının hərəkətini mübahisələndirmiş və müvafiq tədbir görülməsini xahiş etmişdir.

Namizəd İ.F.Xəlilov müraciətində iddia etmişdir ki, 54 saylı Şabran-Siyəzən seçki dairəsi dairə seçki komissiyasına daxil olmuş aktlar qanunvericiliyin tələblərinə uyğun olaraq araşdırılmamış, bununla da onun hüquqları pozulmuşdur.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. O, araşdırmada iştirak etsə də, Komissiyanın iclasına gəlməmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, İ.F.Xəlilov 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdən sonra fevralın 12-də Mərkəzi Seçki Komissiyasına məlumat xarakterli 28 ədəd müşahidəçi aktı və 1 ədəd elektron məlumat daşıyıcısı təqdim etmişdir. Həmin aktlar 16 fevral 2020-ci ildə aidiyyəti üzrə 54 saylı Şabran-Siyəzən dairə seçki komissiyasına göndərilmişdir. Sözü gedən aktlar Seçki Məcəlləsinin tələblərinə uyğun qaydada təqdim olunmadığından, dairə seçki komissiyası namizədə şikayətin verilməsinə dair seçki qanunvericiliyinin tələblərini ətraflı izah edən 18 fevral 2020-ci il tarixli 53 nömrəli məktubla cavab vermişdir.

Göstərilənlərə əsasən dairə seçki komissiyasının hərəkətində Seçki Məcəlləsinin tələbinin pozulması halları öz təsdiqini tapmadığından namizəd İ.F.Xəlilovun müraciəti əsassız hesab edilərək təmin olunmamalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 54 saylı Şabran-Siyəzən seçki dairəsi üzrə qeydə alınmış namizəd Xəlilov İlkin Fikrət oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli 339 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Rafiq Abbasov